# İctimai Şuranın üzvləri Təhsilin İnkişafı Fondunda olublar

## 2025-ci il üçün nəzərdə tutulan fəaliyyət planı və həyata keçiriləcək layihələr müzakirə olunub






Fevralın 4-də Elm və Təhsil Nazirliyi (ETN) yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, Şuranın üzvləri Günay Əkbərova, Orxan Kərimzadə, Heydər Eminli, Elçin Əzimli, Rafael Hacıbəyli, Sevinc Məhəməliyeva və Rasif Dünyamalıyev Təhsilin İnkişafı Fondunun (TİF) qonağı olublar.

Görüşün əsas müzakirə mövzuları 2025-ci il üçün nəzərdə tutulan fəaliyyət planı və həyata keçiriləcək layihələr ətrafında olub.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov çıxış edərək Fond tərəfindən həyata keçirilən layihələr haqqında məlumat verib. O, Fondun əsas missiyasının Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələrin dəstəklənməsi, dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması yolu ilə təhsilin dayanıqlı inkişafına nail olmaq olduğunu bildirib. İctimai Şuranın cəmiyyət və universitetlər arasında dialoqun qurulmasında mühüm rolunun olduğunu qeyd edən E.Nəsibov Şuranın bu istiqamətdə aktiv fəaliyyətini xüsusi vurğulayıb.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə təhsilin cəmiyyətdəki rolunun önəmini vurğulayıb. O, Fond tərəfindən təhsilalanların və təhsilverənlərin fəaliyyətinin stimullaşdırılması üçün təşkil edilən layihələrin vacibliyini qeyd edib. H.Əlizadə Fondun təhsil sahəsindəki davamlı və səmərəli fəaliyyətini vurğulayaraq Təhsilin İnkişafı Fondunun gələcək fəaliyyətlərində daha böyük nailiyyətlər qazanmasını diləyib.

Tədbirin yekununda Elm və Təhsil Nazirliyi yanında İctimai Şura üzvləri arasında müzakirələr aparılıb və fəaliyyət planına dair təkliflər irəli sürülüb.